# “Ərtoğrol Cavid: taleyi və sənəti”




Məlum olduğu kimi, bu ilin oktyabr ayında Cavid ocağının dəyərli nümayəndələrindən biri kimi zəngin irs yaratmış musiqişünas, rəssam və tədqiqatçı Ərtoğrol Cavidin anadan olmasının 100 illiyi tamam olur. 24 illik qısa ömründə elmimiz, sənətimiz üçün çox lazımlı işlər görmüş bu Cavid yadigarının ədəbi irsi indiyədək kifayət qədər tədqiq edilməmişdir. Bunları nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 18 aprel 2019-cu il tarixdə Ərtoğrol Cavidin anadan olmasının 100 illiyinin qeyd olunması haqqında tarixi bir Sərəncam imzalamışdır. Bu Sərəncam əsasında Ərtoğrol Cavidlə bağlı geniş miqyasda mədəni kütləvi tədbirlər keçirilmiş, kütləvi informasiya vasitələrində, o cümlədən mətbuat, radio və televiziyada materiallar verilmişdir. Elə bu yaxınlarda “Əcəmi” nəşriyyatında nəfis şəkildə nəşr edilmiş “Ərtoğrol Cavid: taleyi və sənəti” kitabı da bu Sərəncama əsasən işıq üzü görmüşdür.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda hazırlanmış “Ərtoğrol Cavid: taleyi və sənəti” kitabı Ərtoğrol Cavid irsinin tədqiqinə həsr olunmuşdur. Kitabın əvvəlində Ərtoğrol Cavidin anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında Ali Məclis Sədrinin imzaladığı Sərəncamın mətni verilmişdir.

Bu dəyərli nəşr iki bölmədən ibarətdir. Birinci bölmədə AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin “Türk oğlu Ərtoğrol Cavid (Ərtoğrol Cavid irsinin öyrənilməsi məsələləri)”, Əməkdar elm xadimi, professor Hüseyn Həşimlinin “Ərtoğrol Cavidin bədii yaradıcılığı, “Ədəbiyyat” qəzetinin baş redaktoru, filologiya elmləri doktoru Azər Turanın “Ərtoğrol Cavid-ölümə tərk edilən”, Hüseyn Cavidin Ev Muzeyinin direktoru, filologiya elmləri doktoru Gülbəniz Babaxanlının “Dahi atanın istedadlı oğlu” və sair müəlliflərin Ərtoğrol Cavid irsinin tədqiqinə həsr olunmuş məqalələri öz əksini tapmışdır. İkinci bölmədə Ərtoğrol Cavidin həyat yolunu əks etdirən Cavidlər ailəsinə məxsus, o cümlədən Ümummilli Liderin Hüseyn Cavidin Naxçıvanda ucaldılan məqbərəsinin açılışı zamanı çəkilən fotoşəkillər və Ərtoğrol Cavidin anası Müşkünaz xanım və bacısı Turana yazdığı məktublar da yer alıb.

“Ərtoğrol Cavid: taleyi və sənəti” kitabı Ərtoğrol Cavid irsinin öyrənilməsinə, ümumiyyətlə, Cavidşünaslığa layiqli töhfədir.

İki sahil.- 2019.-30 oktyabr.- S.14